**Hörmət Cavadova**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,***
***fəl.ü.f.d., dosent***
*cavadova22@mail.ru*

# M.F.AXUNDZADƏ CƏMİYYƏTİN TƏRƏQQİSİNDƏ ELMİN VƏ MAARİFİN ROLU HAQQINDA

*Məqalədə Azərbaycan dramaturgiyasının banisi, filosof, ictimai xadim Mirzə Fətəli Axundzadənin milli ədəbiyyatın və ictimai-siyasi fikrin inkişafında mühüm rolundan bəhs olunmuşdur. Görkəmli ictimai xadim, ədib və filosof kimi M.F.Axundzadənin ədəbiyyatın, sosial-siyasi fikrin və fəlsəfənin inkişafında böyük xidmətləri olmuşdur. O, öz xalqının və Şərq xalqlarının tərəqqidən geri qaldığını görmüş, vətənini qabaqcıl Avropa ölkələrinin sosial-siyasi, iqtisadi mədəni inkişaf səviyyəsinə çatdırmaq üçün yollar axtarmışdır.*

*1863-1865-ci illərdə yazdığı “Kəmalüddövlə məktubları” maarifçilik ədəbiyyatının bir nümunəsi kimi orta əsrlər sxolostikasına qarşı çevrilmişdir. Müəllif ömrünün sonunadək bu əsərin üzərində işləmiş, onu genişləndirmiş, tarixi-elmi faktlarla zənginləşdirmiş, fars və rus dillərinə tərcümə etmişdir.*

*Məqalədə Axundzadənin fəlsəfi və dini baxışları da təhlil edilmişdir. Dinin və idealizmin əksinə olaraq Axundzadə fəlsəfənin əsas məsələsini-təfəkkürün varlığa, ruhun təbiətə münasibətini materialist mövqedən izah etmiş, hər şeyin əsasında materiyanın durduğunu göstərmişdir. Təfəkkür haqqında materialist nəzəriyyəyə istinadən o, fövqəltəbii qüvvənin mövcudluğunu inkar etmişdir. O, dünyanın ilahi bir qüvvə tərəfindən yaradılması barədə dini baxışları inkar etmiş, hər şeyin əsasında materiyanın durduğunu bildirmişdir.*

***Məqsəd*** – M.F.Axundzadənin ədəbii, ictimai-siyasi, maarifçilik və fəlsəfi-dini ideyalarını təhlil etmək.

***Metodologiya*** – müqayisəli təhlil, varislik, analiz.

***Tədiqatın nəticələri*** – Mirzə Fətəli Axundzadənin ideyaları ilə çağdaş dövrün ictimai-siyasi və ideoloji tələbləri arasında uzlaşdırmaların axtarılması

***Açar sözlər*:** *Azərbaycançılıq, maarifçilik, İslam dini, yeniləşmə, Qərbçilik, sosial-demokrat*

## Giriş

Mirzə Fətəli Axundzadə 1812-ci ildə Şəki şəhərində anadan olmuşdur. İki yaşı olarkan Fətəli ailəsi ilə birlikdə atasının vətəninə - Cənubi Azərbaycana köçür. 1821-ci ildə Fətəlinin anası Nanə xanım ərindən boşanaraq oğlu ilə birlikdə Ərdəbilə gəlir və əmisi Axund Hacı Ələskərin yanında yaşamağa başlayır. Anasının əmisi Fətəlini himayəsinə götürür və onun tərbiyəsi və təhsili ilə şəxsən özü məşğul olmağa başlayır. Ərəb və fars dillərini mükəmməl bilən Axund Hacı Ələsgər qısa bir müddət ərzində bu dilləri Fətəliyə də öyrədir.

1925-ci ildə Axund Hacı Ələsgər Fətəli ilə birlikdə əvvəlcə Gəncəyə, sonra isə Şəkiyə gəlir. Şəkidə gənc Fətəli dini təhsilini bir qədər də mükəmməlləşdirir. O, dini kitabları oxumaq əsasında müsəlman dinin əsaslarını öyrənir.

1932-ci ildə Axund Hacı Ələsgər Məkkə ziyarətinə gedərkən Fətəlini Gəncədə o dövrün görkəmli din xadimi Hüseyn Pişnamazzadənin yanına hüququ və məntiqi öyrənmək üçün qoyur. Fətəli həmçinin görkəmli şair və mütəfəkkir Mirzə Çəfi Vazehin yanında xəttatlıq dərsi alır. Mirzə Şəfi Vazehlə görüş onun həyatında dönüş yaradır. Belə ki, Mirzə Şəfi Vazehin

təsiri ilə Fətəli dini təhsildən imtina edir. Bu barədə M.F.Axundzadə yazır: “Atalığım Məkkədən qayıdana qədər Mirzə Şəfi mənə maarifçiliyin əsaslarını öyrətdi və dünyanı görüb, hiss etməyə mane olan pərdəni gözümün qarşısından qaldırdı. Bundan sonra mən ruhanilikdən imtina etdim və öz fikrimi dəyişdim” (10, s.37).

Mirzə Fətəli tezliklə o dövrdə Zaqafqaziyanın iqtisadi-mədəni mərkəzi olan Tiflisə getmək barədə qəti qərar qəbul edir və öz qərarını əmisinə bildirir. Din xadimi olmaqla bərabər, həm də yüksək elmi dünyagörüşə malik olan Axund Hacı Ələsgər onun bu qərarına hörmətlə yanaşır və onu Tiflisə özü aparır və Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində Şərq dilləri mütərcimi təyin olunmasına köməklik edir. Mirzə Fətəli ömrünün sonuna qədər bu vəzifədə çalışmış və 1873-cü ildə ona polkovnik hərbi rütbəsi verilmişdir. O, 1878-ci il fevralın 26-da Tiflisdə vəfat etmişdir.

1850-1856-cı illər ərzində yazdığı altı komediyası ilə Azərbaycanda və Yaxın Şərq ədəbiyyatında realist dramaturgiyanın, o cümldən komediya şanrının əsasını qoymuşdur. Onun “Hekayəti-Molla İbrahimxəlil kimyəgar”, “Hekayəti-Müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur”, “Sərgüzəşti-vəziri-xani-Lənkəran”, “Hekayəti-xırsi-quldur-basan”, “Sərgüzəşti-mərdi-xəsis” və “Hacı-Qara”, “Mürafiə vəkillərinin hekayəti” komediya-ları özündə türk təfəkkürünün sənət ekvivalenti sayılan xalq-meydan oyunlarını, islami dəyər-ləri önə çəkən şəbeh-misteriya tamaşalarını, həmçinin klassik yunan və intibah dövrünün ənənələrini özündə əks etdirirdi. 1857-ci ildən ərəb əlifbasında əvvəl islahat aparılması, sonra dəyişməsi istiqamətində qızğın fəaliyyətə başlamış, altımışıncı illərdən ömrünün sonuna qədər bir mütəfəkkir kimi tənqid, fəlsəfə və sosiologiya sahəsində çalışmış, özünün “Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə fars dilində yazdığı üç məktubun və Cəlalüddövlənin ona göndərdiyi cavabın türk dilində tərcüməsidir”(1864-1865) ədəbi-fəlsəfi traktatını, həmçinin “Kəmalüddövlə məktubları”nın mülhədatı” “Həkimi-ingilis Yuma cavab”, “Yek kəlmə haqqında”, “Məsəli-həkim Sismondi, “Con Stüart milli azadlıq haqqında”, “Nəzm və nəsr haqqında”, “Mirzə Ağanın pyesləri haqqında kritika”, “Mollayi Rumi və onun təsnifinin babında”, “Kritika” və s. məqalələrini yazmışdır.

**Ədəbi, ictimai-siyasi və maarifçilik ideyaları**

Hər bir xalqın ədəbiyyatı onun güzgüsü hesab olunur. Müxtəlif tarixi dövrlərdə cəmiyyətdə baş verən sosial və mədəni dəyişikliklər ədəbiyyatda da öz əksini tapmışdır. Hər hansı bir xalqın mədəni səviyyəsini məhz onun milli ədəbiyyatını oxumaqla öyrənmək olar. Tarixən yaradılan ədəbi əsərlərdə bir tərəfdən xalqın ağrı-acıları, problemləri təsvir edilmiş, digər tərəfdən həmin əsərlərdə yaradılan obrazlar vasitəsilə mövcud cəmiyyətdə insanların maarifləndirilməsi, tərbiyə edilməsi həyata keçirilmişdir.

XIX yüzillikdə Azərbaycan ədəbiyyatı və incəsənəti öz inkişafında yeni mərhələyə qədəm qoyur. Bu dövrün görkəmli ictimai xadimi, ədibi və filosofu M.F.Axundzadənin ədəbiyyatın, sosial-siyasi fikrin və fəlsəfənin inkişafında böyük xidmətləri olmuşdur. O, öz xalqının və Şərq xalqlarının tərəqqidən geri qaldığını görür, vətənini qabaqcıl Avropa ölkələrinin sosial-siyasi, iqtisadi mədəni inkişaf səviyyəsinə çatdırmaq üçün yollar axtarırdı.

XIX əsrin ortalarında Azərbaycanda hələ inkişaf etmiş milli mətbuat yox idi. Axundzadə dövrünün “Molla Nəsrəddini”, “Kəmalüddövlə məktubları” olur. Sonralar Zərdabi və Mirzə Cəlil bu məktublardan bəhrələnir, məhz “Əkinçi”, “Poçt qutusu” bu məktubları evbəev, mənzilbəmənzil - “müsəlman qardaşlara” – novruzəlilərə çatdırır (4, s. 4).

M.F.Axundzadə XIX əsrin durğunluqlarına, nadanlığa və cəhalətə qarşı mübarizə aparan *"Əkinçi" qəzetinin* nəşrinə böyük əhəmiyyət vermiş və onun nəşrinə hazırlıq işində, qəzetin elanlarının yazılmasında Həsən bəy Zərdabiyə kömək etmişdir. Həsən bəy Zərdabi Axundzadənin maarifçilik ideyalarının ən istedadlı davamçılarından biridir. M.F.Axundza-

dənin maarifçilik ideyaları Həsən bəy Zərdabinin maarifçilik fəaliyyəti nümunəsində öz əksini tapmışdır. Əkinçi qəzetinin səhifələrində M.F.Axundzadə "Vəkili Milləti-Naməlum" imzası ilə məqalələr dərc etdirmişdir (6,s.136).

M.F.Axundzadə öz ədəbi və ictimai-siyasi fəaliyyətində Şərq xalqlarının, o cümlədən, Azərbaycan xalqının zəngin ədəbi, ictimai fikirindən və fəlsəfi irsindən bəhrələnmişdi. O, bir neçə şərq dillərində sərbəst danışmış, hind ədəbiyyatını və fəlsəfəsini dərindən bilmişdir. M.F.Axundzadə klassik dünya ədəbiyyatının nümayəndəsi Əbdülqasım Firdovsunun yaradıcılığına bələd olmuş və onun dünyanın dörd ünsürdən – oddan, havadan, sudan və torpaqdan ibarət olması fikrini yüksək qiymətləndirmişdir.

Qeyd etdiyimiz kimi, M.F.Axundzadə qədim hind fəlsəfəsi və mədəniyyətinə dərindən bələd olmuşdur. O, Hindistan xalqının tarixini, adət-ənənələrini yaxşı bilmişdir. Məşhur “Kəmalüddövlə məktublarından” aydın olur ki, o, qədim hindlilərin dini-fəlsəfi təliminə - buddizmə, brahmanizmə yaxşı bələd olmuş və çarvakların materialist fəlsəfəsini təhlil etmişdir.

M.F.Axundzadənin dünyagörüşünün formalaşmasına Azərbaycan şair və mütəfəkkir-lərindən Əfzaləddin Xaqaninin, Nizami Gəncəvinin, İmaməddin Nəsiminin, Məhəmməd Füzulinin də təsiri olmuşdur. O, Nizami Gəncəvinin yaradıcılığını yüksək qiymətləndirmiş və qeyd etmişdir ki, tarixdə belə şairə çox az rast gəlinir. Məlumdur ki, Nizami bütün əsərlərində dövləti idarə edən şahları humanizmə və ədalətli olmağa çağırmışdır.

M.F.Axundzadə gənc yaşlarından rus dilini öyrənmiş, Lomonosovun, Karamzinin, Derjavinin, Puşkinin yaradıcılığına bələd olmuşdur. Onun ilk bədii əsəri də Puşkinin ölümünə həsr etdiyi “Şərq poeması” olmuşdur. Onun şəxsi kitabxanasında Qoqolun, Dobrolyubovun, Kolsovun əsərləri olmuşdur (9, s. 263-264).

Mirzə Fətəli həmçinin, təbiətşünas alimlərdən Qalileyin, N.Kopernikin, Ç.Darvinin, H.Hekslinin, İ.Nyutonun əsərlərini dərindən bilmişdir. Axundzadəni həmçinin fəlsəfi problemlər də maraqlandırmışdır. Onun əsərlərini araşdırarkən məlum olur ki, şərq və rus fəlsəfəsini bilməklə yanaşı, qərbi avropa mütəfəkkirlərindən Spinozanın, Yumun, Volterin, Monteskyenin yaradıcılığına bələd olmuş, öz əsərlrində tez-tez onlara istinad etmişdir. Axundzadənin materiya, məkan və zaman haqqında fikirlərinə, şərq despotizminin tənqidinə, fransız materialistlərinin, o cümlədən Holbaxın təsiri görünür. Axundzadə dinlərin o cümlədən, İslam dininin də tarixini yaxşı bilmiş, kitabxanasında dinin tarixinə dair çoxlu kitablar olmuşdur.

M.F.Axundzadə yaradıcılığına şerlə başlamış, Səbuhi təxəllüsü ilə şerlər yazmış, 1857-ci ildə yazdığı “Aldanmış kəvakib” adlı povestində şah despotizmini tənqid etmiş, cəmiyyətdə sosial islahatların aparılmasının zəruriliyini irəli sürmüşdür.

Axundzadənin dramaturgiyaya müraciət etməsi onun maarifçilik görüşləri ilə bağlı olmuşdur. Xalqı maarifləndirmək üçün dramaturgiyanın komediya janrından istifadə etmişdir. Satiranın, bədii gülüşün insan həyatında rolunu və əhəmiyyətini dönə-dönə vurğulayan Axundzadə satiranın tərbiyəvi rolunu önə çəkərək yazmışdır: “Xalqı tərbiyələndirmək, həmməzhəblərimizin əxlaqını saflaşdırıb islah etmək, dövləti nizam-intizama salıb, onun əmrlərinin və qadağan etdiyi işlər haqqındakı hökmlərinin təsirini artırmaq üşün tənqiddən faydalı heç bir faydalı vasitə ola bilməz (2, s.247).

Dram janrı içərisində onun komediya janrına müraciət etməsi həm də XIX yüzilliyin ortalarında Azərbaycan cəmiyyətinin iqtisadi-mədəni tərəqqisi qaşısında bir maneəyə çevrilmiş feodal hakimlərinin özbaşnalığı, onların mənəviyyatsızlığı, geriliyini ifşa etmək zərurəti yaratmışdı. Axundzadənin komediyaları da bilavasitə Azərbaycan gerçəkliyində yaranmış bu yeni məzmundan doğmuşdu. O, tənqidi gülüşə ədəbi ehtiyacı vaxtında görmüş, öz yaradıcılığında sosial-mənəvi həyatın bu ədəbi tələbini layiqincə yerinə yetirmiş, müasirlərinin

də həmin ədəbi reallıqlara inandırmağa çalışmışdır. Onun komediyaları gülmək xətrinə gülməkdən doğmurdu, bu gülüş vacib əxlaqi və sosial problemlərin həllinə kömək edən bir gülüş idi. M.F.Axundzadə feodal-istibdad qaydalarına qarşı, "millətin təhsilliyini və onun mövhumatdan azad olmasını" nəzədə tutan cəmiyyətin yeni demokratik əsaslar üzərində dəyişdirilməsi uğrunda çıxış etmişdir. O, əqli qabiliyyətlərin inkişafını, elmin öyrənilməsi, yayılması və praktik tədqiqini öz yurdunun sosial-mədəni tərəqqisinin mühüm şərti kimi nəzərdən keçirərək, Azərbaycan xalqının elmə, maarifə cəlb etməyə səy göstərirdi. Axundzadənin başlıca idealı köhnə feodal-patriarxal quruluşun yeni demokratik, ədalətli quruluşla əvəz olunması, xalqın azadlığı, xoşbəxtliyə çatması və inkişafı olmuşdur ki, bütün bunlar öz əksini onun ədəbi-tənqidi və fəsləfi yaradıcılığında tapmışdır. Bununla bərabər o, dövlət idarəçiliyi mədəniyyətinə böyük siyasi əhəmiyyət verərək qeyd edirdi ki, idarəetməni "qorxu deyil, məhbbət" eqoist məqsədlərlə deyil, xalqın rifahı naminə quran "müdrik xalq hakimləri" olmadan, xalqın maariflənməsi və cəmiyyətdə proqressiv islahatlar mümkün deyil. M.F.Axundzadə zülmkarlıqdan fanatizmdən, köləlikdən, yaltaqlıq, özbaşnalıqdan imtina etməyə, vətənpərvərlik göstərməyə, "ədalətə, xalqa və vətənə məhəbbətə əsaslanan idarəçilik üsulunun" qurulmasına, dövlətin rifahının və təhlükəsizliyinin yüksəldilməsinə çağırırdı.

Azadlıq və demokratiya uğrunda mübarizəni o, istibdaddan azad olmaq, insan münasibətlərinin və ətraf aləmin dərk edilməsi vasitəsi kimi nəzərdən keçirirdi. Qərbin liberal dəyərləri kontekstində o, azadlığı – mülkiyyət, şəxsiyyətin inkişafı və vicdan azadlığı hüququ, demokratik təşkilatların və cəmiyyətlərin təsis edilməsi hüququ kimi başa düşürdü.

Azərbaycan demokratik, intellektual və etik mədəniyyətin inkişafı məsələlərinə geniş diqqət ayırırdı. "Adəmiyyət" kitabında tərəqqipərvər Azərbaycan mütəfəkkiri və vətənpərvəri, təbiətin yeganə nümayəndəsi olan, (heyvanlardan fərqli olaraq) daimi əqli, mənəvi və estetik inkişafa məruz qalan insanın xüsusi missiyası haqqında danışır. Bununla yanaşı Axundzadə insanın yeddi sosial vəzifəsini tərtib etmişdir. Bu: pis əməllərdən qaçmaq, xeyirxahlıq etmək, zülmkarlıqla mübarizə, başqa insanlarla birlikdə və vəhdətdə yaşamaq, elmin arxasınca getmək və onu yaymaq, qanunların və insan hüquqlarının müdafiəsi uğrunda mübarizə aparmaq tələbləridir (7, s.224). M.F.Axundzadə dərindən inanırdı ki, xalqın azadlığına və xoşbəxtliyinə yol, onun zülmdən, cahillikdən və mövhumatdan qurtuluşu – mədəniyyətdən, elmin, tərəqqinin və sivilizasiyanın inkişafından və yayılmasından keçir (7, s.224).

XIX yüzilliyin 50-ci illərinin ortalarından başlayaraq Axundzadə 20 ildən çox müddət ərzində Azərbaycanda mövcud ərəb əlifbasında islahatlar aparılması uğrunda mübarizə aparmışdır. Axundzadə ərəb əlifbasında islahatın Qafqazda həyata keçirilməsi üçün Rusiya Elmlər Akademiyasına müraciət etmişdir. Akademik Boris Dorna məktubunda, «Sivilizasiyanın indiki sürətli nailiyyətləri dövründə yazının belə qeyri-təbiiliyi mədəni dünyanın Şərq ədəbiyyatına sarı gedən yolunu həmişəlik bağlaya bilməzdi, onun əlifbasında mütləq dəyişiklik əmələ gəlməli idi» – deyən, Axundzadə ümid edirdi ki, Akademiya bu məsələyə diqqət yetirəcək və layihə barədə öz müsbət qərarını bildirəcəkdir. Dorn cavab olaraq yazır ki, yəni əlifba ideyasını bəyənir, ancaq bu ideyanı müsəlmanlar arasında yaymaq, öhdəsindən gəlinməz çətinliklərlə bağlıdır. «Digər tərəfdən hazırda işlənən müsəlman əlifbasının yararsız olduğunu etiraf edən və bunu aradan qaldırmaq üçün müxtəlif cəhdlər göstərən Avropa oriyentalistləri , öz əsərləri müsəlmanların istifadəsindən çıxmasın deyə, sizin əlifbanızı qəbul etməyə çətin razı olarlar» (8, s.321).

1863-1865-ci illərdə yazdığı "Kəmalüddövlə məktubları" maarifçilik ədəbiyyatının bir nümunəsi kimi orta əsrlər sxolostikasına qarşı çevrilmişdir. Arxiv sənədlərindən məlum olur ki, müəllif ömrünün sonunadək bu əsəri üzərində işləmiş, onu genişləndirmiş, tarixi-elmi faktlarla zənginləşdirmiş, fars və rus dillərinə tərcümə etmişdir. Əsərin çap olunması üçün çox çalışmış, müxtəlif vasitələrə əl atsa da buna nail ola bilməmişdir. Hətta öz dostları vasitəsilə

Peterburq, Paris, London, Tehran, İstanbul və Bombey naşirlərinə müracit edib, əsərin müqabilində heç bir müəllif haqqı almadan çap edilməsini xahiş etmişsə də də ancaq yenə də öz məqsədinə nail ola bilməmişdir. Bunun başlıca səbəbi əsərdə bir sıra həqiqətlərin pərdəsiz söylənilməsi idi (1, s.4).

Həqiqəti açıq söyləməkdə müstəsna bir qorxmazlıq və cəsarətə malik olan M.F.Axundzadə təhlükələri nəzərə alaraq, həmin əsərin müəllifi olduğunu gizlətmiş, onun heç bir nüsxəsində öz adını müəllif kimi qeyd etməmişdir. O, bu sirri yalnız öz yaxın dostu Mirzə Yusif xana açmış, sonralar isə Mirzə Melkum xana, “Təmsilatın” fars dilinə mütərcimi olan Məhəmməd Cəfər Qərəcədağiyə və bir neçə başqa dostuna söyləmişdir (1, s.4).

Axundzadə oğlu Rəşidə məktubunda yazır: ““Kəmalüddövlə”nin nəşr edilməsi ümüdi ilə vaxt keçiririk, bilmirəm mənim bu ümüdüm ölümümə qədər gerçəkləşəcəkmi, yoxsa arzu olaraq qalacaq” (9, s.20).

Axundzadənin arzusu yalnız 1938-ci ildə reallaşır, “Kəmalüddövlə məktubları” azərbaycan dilində nəşr olunur.

**Fəlsəfi və dini görüşləri**

M.F.Axundzadə müsəlman mütəfəkkirləri arasında ilk dəfə olaraq siyasi, sosial, dini problemlərə daha cəsarətlə, tənqidlə yanaşmışdır ki, bu da onun eyni dövrdə yaşadığı başqa mütəfəkkirlərdən başlıca üstünlüyü, fərqi idi. Tədqiqatçılar hesab edirlər ki, dövründəki dini xürafatı, mövhumatı, bir çox ruhanilərin, mollaların riyakarlığını daha cəsarətlə tənqid edən Axundzadə mövcud reallıqları dərindən dərk etmiş, Qərbi Avropa dəyərlərini mənimsəməyə çalışmış və bir sıra islahatçı təkliflərlə çıxış etmişdir ( 8, s.312).

M.F.Axundzadə Şərq ədəbiyyatında ilk ateist-fəlsəfi əsər olan “Kəmalüddövlə məktubları”nın yazılma səbəbini belə izah edirdi: “Kəmalüddövlənin müəllifi öz xalqının qəlbində vətəninə sevgi, vicdan, şərəf, ədalət və bərabərlik cücərtilərini yaratmaq istəyirdi. O, istəyir ki, çəkişmələr birliklə əvəz olunsun, yoxsulluq aradan qalxsın, xalq xöşbəxt olsun” (11, s.6).

Axundzadə dini kəskin tənqid edirdi və onu tərəqqi yolunda ən böyük maneə hesab edirdi. O yazırdı: “...İslam dini meydana çıxan gündən hazırkı əsrə qədər, Şərqdə elmlərin durğunluğunun, dəhşətli despotizmin əmələ gəlməsinin səbəblərini və ümumiyyətlə, asiyalıların mədəniyyət və tərəqqi işlərinə qarşı laqeydlik və etinasızlığının səbəblərini heç kəs başa düşməmişdir. Bu cəhətdən təkcə Firdovsi müstəsnalıq təşkil edir və öz dühası ilə, həqiqətən kəşf edə bilmişdir ki, Şərq xalqlarının bu qədər böyük bədbəxtliyinin səbəbi ərəblər və onların insan həyatına uyğunlaşmayan dinidir” (3, s. 310).

Axundzadə inanırdı ki, əgər onun “Kəmalüddövlə məktubları” çap olunaraq əhali arasında geniş yayılsa, sadə insanlar dini fanatizmdən uzaqlaşacaq, onlarda “savadlanmaq həvəsi, elmləri öyrənmək cəhdləri əmələ gələcək, onların əxlaq və tərbiyəsi yaxşılaşacaq, onların arasında oğurluq və müxtəlif cihayətlər, xüsusla, çox zaman ehtiyac üzündən deyil, savadsızlıq və mədəniyyətsizlik üzündən “igidlik əlaməti” sayılan soyğunçuluq hadisələri azalacaqdır” (3, s. 310).

Görünür ki, Axundzadə maarifçilik prinsiplərinə sadiq qalaraq dini sosial tərəqqi yolunda əngəl hesab edirdi. Lakin o, dinin cəmiyyətdə, insan həyatında oynadığı rolu və yerinə yetirdiyi pozitiv funksiyaları görmək istəmirdi, nisbətən asan yolla sosial tərəqqinin əsas problemlərini həll etmək istəyirdi. Eyni zamanda O, İsam dininin insan həyatından tamamilə çıxmasının da tərəfdarı deyildi. O yazırdı: “İslam dini ancaq o zaman yaşayıb davam edə edə bilər ki, insanlar dinin mahiyyətini şüur və mərifət əsasında anlamış olsunlar. Sonra isə başqa xalqlardan fərqlənmək üçün formal olaraq müsəlmanlıqda qalmaq olar. Ancaq onun ehkamını dəyişdirməli, artıq şeyləri atmalı, allah hüququ sayılan bütün məşəqqətli təklifləri tamamilə rədd edərək, onlardan azad olmaq lazımdır (4, s.76).

Axundzaənin ateist irsinin əsasını materialist fəlsəfə təşkil edirdi. Dinin və idealizmin əksinə olaraq Axundzadə fəlsəfənin əsas məsələsini-təfəkkürün varlığa, ruhun təbiətə münasibətini materialist mövqedən izah etmiş, hər şeyin əsasında materiyanın durduğunu göstərmişdir. Təfəkkür haqqında materialist nəzəriyyəyə istinadən o, fövqəltəbii qüvvənin mövcudluğunu inkar etmişdir. O, dünyanın ilahi bir qüvvə tərəfindən yaradılması barədə dini baxışları inkar etmiş, hər şeyin əsasında materiyanın durduğunu bildirmişdir.

Axundzadə yazır: “Hər şeydən əvvəl biz bu dünyanın mövcud olduğunu gözümüzlə görürük. Elə isə, bu varlıq ya özü-özünə, öz qanunları ilə, başqa bir xarici varlığa ehtiyac hiss etmədən mövcuddur ki, belə bir halda biz vəhdət-vücud tərəfdarı olan Budda, Əbdürrəhman Cami, Şeyx Mahmud Şəbüstəri, yunanlı Ksenofan, Petrark, fransız Volter kimi bir qrup alimlərlə həmfikir olaraq deyirik ki, bütün kainat bir vahid, qadir, kamil və geniş varlıqdan ibarətdir ki, saysız-hesabsız varlıqlar müxtəlif şəkillər və şərtləri əsasında vücuda gəlmişdir. Bu kainat bir vahid, qadir və kamil vücuddur. Əvvəli də budur, axırı da budur. Nə ondan qabaq başlanğıc olmuşdur, nə də ondan sonra nəhayət olacaqdır. Zaman onun tələblərindən, məkan isə keyfiyyətlərindən sayılır” (4, s.64).

M.F.Axundzadənin təbii-elmi və fəlsəfi baxışlarını dərindən təhlil edən İ.Rüstəmov belə qənaətə gəlir ki, o, materiyanın saxlanması və çevrilməsi qanununu bilirdi. Materiyanın saxlanması və çevrilməsi qanunu qəbul etməklə o, Azərbaycan materialist fəlsəfəsinə öz töhvəsini vermiş oldu (5, s.28).

Axundzadə eyni zamanda kainatın obyektiv qanunlarını da qəbul edirdi. Onun fikrincə təbiətin və kainatın hər bir hissəsi öz qanunları ilə fəaliyyət göstərir.Bu qanunları inkar etmək təbii inkişaf qanunlarına qarşı çıxmaq deməkdir.Bu isə mümkün deyil, çünki bu qanunlar heç kəsin istəyindən və arzusundan asılı olmayaraq mövcuddur və fəaliyyət göstərirlər. “Zərrələr qəbilindən olan günəşin və ayın da qanunu budur ki, hər biri müəyyən qanuna tabe olaraq çıxıb işıq saçsınlar. Hansı bir zərrə başqa zərrəyə müraciət etməlidir ki, günəşi məhv et və ya ayı parçala? Hansı bir zərrə qadirdir ki, qanuna zidd olan bu tapşırığı həyata keçirsin? (4, s.65).

Beləliklə Axundzadə kainatın müəyyən qanunlarla idarə olunduğunu irəli sürür və göstərir ki, bitkilər, heyvanlar, və ya insanlar təbiiətin inkişafı qanunauyğunluğundan çıxa bilməzlər. Onlardan hər biri dünyaya gəlir, inkişaf edir, nəhayət qocalıb ölürlər.

Axundzadə fəlsəfə tarixində mübahisəli məsələ olan bədən və ruh məsələsinin elmi-materialist mövqedən izah edir. O hesab edir ki, ruh bədənin funksiyasıdır, onun mövcudluğu bədənə bağlıdır, bədən ölərsə ruh da ölür.Ruhun insan öləndən sonra da mövcudluğunu irəli sürən idealistlərə və din xadimlərini tənqid edərək yazırdı:” ...ruh hər nə olsa öz-özünə qaim ola bilməz. Necə ki, əql və xəyal öz-özünə qaim deyildir. Və heç olmasa qab və qalıbları olmalıdır. Buna görə də ruhların bədənlərdən ayrıldıqdan sonra xüsusi yerlərdə təkrar qabsız, qalıbsız müəyyən vücud olması xüsusunda bizim alimlərin etiqadının təsəvvür və təəqqülü kritika qarşısında dura bilməz. Və necə ki, ruhlar üçün bədəndən ayrıldıqdan sonra misali və lətif qalıb xəyal etmək. (4,s.94)

Beləliklə, Axundzadənin gətirdiyi misaldan aydın olur ki, o, bədən ilə ruh məsləsini də materialist mövqedən izah edir və belə nəticəyə gəlir ki, ağıl şüurdan kənarda mövcud ola bilmədiyi kimi, ruh da bədəndən ayrılıqda mövcud ola bilməz. Ruhun ölməzliyi barədə söylənən fikirlər bir rəvayətdir.

Axundzadə dini ehkamlarla elmi bilikləri qarşı-qarşıya qoyaraq belə nəticəyə gəlir ki, bütün həyatın Allaha qovuşmaq məqsədi ilə müxtəlif dini ayinlərin yerinə yetirilməsinə həsr olunması həyatı mənasız və bədbəxt edir. Bu məsələdə o, çarvakların təliminə tərəfdar çıxır. Çarvaklar hesab edirdilər ki, yaradan yoxdur, sağlam düşüncə insanı əxlaqa zidd hərəkətlərdən çəkindirər. İnsan cənnət xülyası ilə yaşamaqdansa, bu dünyanın gözəlliklərindən zövq almalıdır.

**Nəticə**

M.F.Axundzadə Azərbaycan xalqını elmə, maarifə cəlb etməyə səy göstərmişdir. Başlıca idealı, köhnə feodal-patriarxal quruluşun yeni demokratik, ədalətli quruluşla əvəz olunması, xalqın azadlığı, xoşbəxtliyə çatması və inkişafı olmuşdur ki, bütün bunlar da öz əksini onun ədəbi-tənqidi və fəsləfi yaradıcılığında tapmışdır

M.F.Axundzadə müsəlman mütəfəkkirləri arasında ilk dəfə olaraq siyasi, sosial, dini problemlərə daha cəsarətlə, tənqidlə yanaşmışdır ki, bu da onun eyni dövrdə yaşadığı başqa mütəfəkkirlərdən başlıca üstünlüyü fərqi idi. Tədqiqatçılar hesab edirlər ki, dövründəki dini xürafatı, mövhumatı, bir çox ruhanilərin, mollaların riyakarlığını daha cəsarətlə tənqid edən Axundzadə mövcud reallıqları dərindən dərk etmiş, Qərbi Avropa dəyərlərini mənimsəməyə çalışmış və bir sıra islahatçı təkliflərlə çıxış etmişdir.( 8, s.312)

O, maarifçilik prinsiplərinə sadiq qalaraq dini, sosial-tərəqqi yolunda əngəl hesab etmişdir. Lakin o, dinin cəmiyyətdə, insan həyatındakı yerini və rolunu yerinə yetirdiyi pozitiv funksiyaları görmək istəməmiş, nisbətən asan yolla sosial tərəqqinin əsas problemlərini həll etmək istəmişdir. O, eyni zamanda İslam dininin insan həyatından tamamilə çıxmasının da tərəfdarı deyildi. Axundzadə yazırdı: "İslam dini ancaq o zaman yaşayıb davam edə edə bilər ki, insanlar dinin mahiyyətini şüur və mərifət əsasinda anlamış olsunlar. Sonra isə başqa xalqlardan fərqlənmək üçün formal olaraq müsəlmanlıqda qalmaq olar. Ancaq onun ehkamını dəyişdirməli,artıq şeyləri atmalı, allah hüququ sayılan bütün məşəqqətli təklifləri tamamilə rədd edərək, onlardan azad olmaq lazımdır (4, s.76).

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Axundov M.F. Kəmalüddövlə məktubları, Bakı,1959, səh. 4
2. Axundov M.F. Əsərləri, 3 cilddə, III cild, Bakı,1962, səh. 247
3. Axundov M.F. Əsərləri, II cild, Bakı,1988, s. 310
4. Axundzadə Mirzə Fətəli. Əsərləri, üç cilddə, II cild, "Şərq-Qərb", Bakı-2005
5. Rüstəmov İ. Mirzə Fətəli Axundov. Bakı,1986, səh. 28
6. Rüstəmov İzzət. Seçilmiş əsərləri, Bakı, 212, səh. 136
7. Məmmədov Fuad. İdarəetmə mədəniyyəti. Bakı-2013
8. Ələkbərli Faiq. Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). "Elm və təhsil", Bakı, 2018.
9. Tağıyev H. M.F.Axundovun tərcümeyi-halı, Bakı, 1948, səh. 20
10. Ибрагимов А.А.Описание архива М.Ф.Ахундова. Баку,1962, səh. 263-264
11. Mamedov Ш. Мировоззрения М.Ф.Ахундова. М.,1962.

**Хормат Джавадова**

**РОЛЬ НАУКИ И ПРОСВЕЩЕНИЯ В ПРОГРЕССЕ ОБЩЕСТВА**

***Резюме***

В статье рассказывается о важной роли основоположника азербайджанской драматургии, философа и общественного деятеля Мирзы Фатали Ахундзаде в развитии национальной литературы и общественно-политической мысли. Будучи видным общественным деятелем, писателем и философом, М.Ф.Ахундзаде внес большой вклад в развитие литературы, общественно-политической мысли и философии. Он стремился вывести свою страну на уровень социально-политического, экономического и культурного развития ведущих европейских стран.

Его «Письма к Кемал-уд-Довле», написанные в 1863-1865 годах, как образец

просветительской литературы, были обращены против средневековой схоластики. До конца своей жизни автор работал над произведением, обогащая его историческими и научными фактами, а также перевел его на персидский и русский языки.

В статье подвергаются анализу философские и религиозные взгляды Ахундзаде. Вопреки религии и идеализму Ахундзаде разъяснил основной вопрос философии - отношение мышления к бытию, души к природе с материалистической точки зрения, и показал, что материя – основа всего. Ссылаясь на материалистическую теорию мышления, он отрицал существование сверхъестественной силы. Ахундзаде отрицал религиозное мнение о том, что мир был создан божественной силой, и утверждал, что материя является основой всего сущего в мире.

***Цель*** – проанализировать литературные, общественно-политические, просветитель-ские и философско-религиозные идеи М.Ф.Ахундзаде.

***Методология*** – сравнительный анализ, наследование, анализ

***Результаты исследования*** – поиск примирения идей Мирзы Фатали Ахундзаде с социально-политическими и идеологическими требованиями современности.

***Ключевые слова***: *азербайджанство, просвещение, ислам, обновление, западничес-тво, социал-демократия*

**Hormat Javadova**

## THE ROLE OF SCİENCE AND EDUCATİON İN THE PROGRESS OF SOCİETY

***Summary***

The article emphasizes the important role of the founder of Azerbaijani drama, philosopher, public figure Mirza Fatali Akhundzadeh in the development of national literature and socio-political thought. As a prominent public figure, writer and philosopher, M.F. Akhundzadeh made a great contribution to the development of literature, socio-political thought and philosophy. He strove to bring his country to the level of socio-political, economic and cultural development of the leading European countries.

His "Letters to Kemal-ud-Dovla", written in 1863-1865, as an example of educational literature, were directed against medieval scholasticism. Until the end of his life, the author worked on the composition, enriching it with historical and scientific facts, and also translated it into Persian and Russian.

The article analyzes the philosophical and religious views of Akhundzade. Contrary to religion and idealism, Akhundzadeh clarified the main question of philosophy about the relationship of thoughts to being, the soul to nature from a materialistic point of view, and showed that matter is the basis of everything. Referring to the materialistic theory of thought, he denied the existence of supernatural power. Akhundzadeh denied the religious opinion that the world was created by divine power, and argued that matter is the basis of everything.

***Purpose*** – to analyze the literary, socio-political, enlightenment and philosophical-religious ideas of M.F. Akhundzadeh.

***Methodology*** – comparative analysis, inheritance, analysis

***Results of the research*** – search for reconciliations between the ideas of Mirza Fatali Akhundzadeh and the socio-political and ideological requirements of modern times.

***Keywords*****:** *Azerbaijanism, enlightenment, Islam, Renewal, Westernism, Social-democracy*